# Mətbuat nümayəndələri ilə görüş

**Azərbaycan xalqının ictimai-mədəni tarixinin önəmli səhifələrindən biri - milli mətbuatımızın yaranmasının 147-ci ildönümü tamam olur. Milli oyanışın və tərəqqinin sivil əsaslarının yaradılmasının mühüm vasitəsi olmuş anadilli mətbuatımız həm də çoxəsrlik yazılı tariximizin zəngin salnaməsini yaratmışdır. Mövqelərini ildən-ilə möhkəmləndirən azad mətbuat, yeni tipli KİV bu gün ölkəmizdə sivil, demokratik cəmiyyətin qurulmasına layiqli töhfələr verir.**



Milli Mətbuat Günü ərəfəsində Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkil etdiyi tədbirdə də bu barədə ətraflı danışılmışdır.

Tədbiri giriş sözü ilə açan nazirliyin mətbuat xidmətinin rəhbəri Məryəm Qafarzadə ilk öncə, media işçilərini qarşıdan gələn peşə bayramları münasibətilə təbrik etdi, Azərbaycan mədəniyyətinin dünyada tanıdılması, qorunması istiqamətində mətbuat nümayəndələrinin fəaliyyətini yüksək qiymətləndirdi.

Sonra söz Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimova verildi. Mətbuatın cəmiyyətin formalaşmasında, inkişafında böyük rol oynadığını, bu mənada Azərbaycan mətbuatının ölkə həyatında baş verən hadisələrin dinamik şəkildə işıqlandırılmasında misilsiz xidmət göstərdiyini deyən nazir vurğuladı: "Mətbuat dördüncü hakimiyyətdir. Doğrudan da belədir, o, reallıqları, problemləri, nöqsanları üzə çıxarır, hökumətin bu geriliklərin aradan qaldırılması istiqamətində səfərbər olunmasına töhfə verir. Azərbaycan mediası hər zaman fəallığı ilə seçilib və inanırıq ki, bundan sonra da belə olacaq. Mətbuatımız informasiya müharibəsində də mühüm rol oynayır. Müharibədəki məğlubiyyətilə barışmayan düşmənin qisas almaq məqsədilə gücləndirdiyi informasiya müharibəsi milli mətbuatımızın nümayəndələrini daha aktiv olmağa sövq edir. Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında da mətbuatın rolu çoxdur".

Nazir Anar Kərimov mədəniyyət sahəsində aparılan islahatlardan, işğaldan azad olunmuş ərazilərdə mədəniyyət nümunələrinin inventarlaşdırılması, bərpası istiqamətində görülən işlərdən də danışdı. Qarabağın tarixi ilə bağlı, beynəlxalq səviyyədə tanıdılması məqsədilə reallaşdırılan layihələrdən söz açdı. Bu işdə mətbuat nümayəndələri ilə birgə əməkdaşlığa böyük önəm verildiyini bildirdi, Azərbaycan jurnalistlərinə bundan sonrakı fəaliyyətlərində uğurlar arzuladı.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika.- 2022.- 20 iyul.- S.7.